UOT 070

# "AÇIQ SÖZ" QƏZETİ VƏ HÜSEYN CAVİD

**S.Q.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***Journalisim.bsu.edu.az***

*Hüseyn Cavid yaradıcılığı bir əsrə yaxındır ki, tədqiq olunur. Tədqiqatçı alimlər Cavid dramaturgiyasına və poeziyasına dönə-dönə müraciət etsələr də, publisistikası diqqətdən kənarda qalıb. Yalnız bir-iki məqalə istisna olmaqla bu mövzuda geniş tədqiqatlar aparılmamışdır. Əslində Cavid 1903-cü ildən – 1936-cı ilin sonuna kimi poeziya və dramaturgiya ilə yanaşı publisistika ilə də məşğul olub. Bu publisistik məqalələr teatr tamaşalarına, bədii əsərlərə, ədəbi mühitə, maarifə həsr edilmişdir.*

**Açar sözlər**: ədəbi tənqid, çap, müəllif, publisistika, məqalə, əməkdaşlıq

Biz ötən məqalələrimizdə də qeyd etdik ki, Hüseyn Cavid yaradıcılığa əsasən şeir və publisistiq məqalələri ilə başlayıb. H.Cavid də bir çox görkəmli sənətkarlar kimi düşüncələrini, hisslərini sadəcə əsərlərində, şeirlərində deyil, həm də publisistik, ədəbi-tənqidi məqalələrində əks etdirmişdir. Zaman keçdikcə H.Cavidin bu publisistik və ədəbi-tənqidi məqalələrini dərindən və əhatəli öyrənməyə daha çox ehtiyac duyulur. Bu da cavidşünasları hələ də özəllikləri elmə naməlum qalan Cavid publisistikasını araşdırmağa sövq edir.

Cavidşünaslıq, xususilə də sovet cavidşünaslığı öyrənildiyi halda, Cavid publisistikasının araşdırılması, bu haqda irəli sürülən fikirlər, məqalələr heç bir elmi araşdırmanın predmetinə çevrilməmişdir. H.Cavid publisistikası onun bədii yaradıclığına nisbətən, demək olar ki, tədqiq edilməmişdir. Bu mövzuda tədqiqatçı alim Kamran Əliyev tərəfindən "Hüseyn Cavidin publisistikası" adlı məqalədə məlumat verilir. Müəllif məqaləsində bildirir ki: "Görkəmli sənətkar publisistika ilə daha sıx 1904-1916-cı illərdə məşğul olub və publisistik məqalələrində ədəbi tənqidə, sözə dair irəli sürdüyü mülahizələr bu gün də öz aktuallığını və müasirliyini itirməyib".

K.Əliyevin bu fikirlərini filologiya elmləri üzrə fəlsəfə doktoru İsgəndər Atilla "Əsrin şairi" kitabında da təsdiq edərək yazır ki: "H.Cavidin 1904-1917-ci illərdə publisistika ilə məşğul olub". Lakin hər iki alim burada bir az yanlışlığa yol verir. Belə ki, 1920-ci ilin əvvəllərindən, 1936-cı ilin sonlarına kimi

Bakıda çap olunan mətbu orqanlarının əksəriyyətinin səhifələrində H.Cavidin teatra, ədəbiyyata, ədəbi mühitə, maarifin təbliğinə və s. mövzulara həsr etdiyi onlarla məqalələri ilə rastlaşdıq.

Yeri gəlmişkən qeyd edək ki, Cavid yaradıcılığı boyu publisistika ilə də məşğul olmuşdur. "Füyüzat", "İrşad", "Açıq söz", "İqbal", "Həqiqət", "Gənc işci", "Ədəbiyyat", "Maarif və mədəniyyət", "Qızıl Şəfəq", "Yeni yol" və s. mətbuat orqanlarında müxtəlif mövzuda və müxtəlif janrda məqalələrlə çıxış etmişdir. Unutmaq olmaz ki, H.Cavidin publisistikasına məqalələrindən əlavə, onun məktubları da daxildir. Şərifzadəyə, Məmmədəli Sidqiyə və Əziz Şərifə yazdığı məktubları onun yaradıcılığında önəmli yer tutur. Bu məktublar haqqında mətbuat tariximizin görkəmli tədqiqatçısı Ə.Şərif "Geçmiş günlərdən" adlı əsərində çox geniş məlumat verir. Növbəti məqalələrimizdən birində bu haqda ətraflı məlumat verəcəyik.

İndi isə H.Cavidin müxtəlif janrlarda və mövzuda olan bu publisistik məqalələri haqqında söhbət açacağıq. H.Cavidin bu məqalə və yazıları yeni məktəblərin açılmasına, elmin, maarifin inkişafına, teatrın təbliğinə, yeni əsərlərin tərtibinə və s. məsələlərə həsr edilib. İstər kiçik məzmunlu məqalə və çıxışlarında, istərsə də böyük həcimli əsərlərində H.Cavid heç zaman kimsəyə xoş gəlmək üçün "mədhiyyə" yazmayıb. Bu hiss onun təbiətinə çox yad olub. Hələ İstanbulda oxuyarkən bir qrup tələbə yoldaşlarının Sultan Əbdülhəmidə imzaladığı məktubda bunun bir daha şahidi oluruq. Buna sübut olaraq "İrşad" qəzetinin 1906-cı il 4 sentyabr tarixli sayına diqqət yetirək. Qəzetin həmin sayında İstanbulla bağlı bir neçə xəbər dərc edilib. Bu xəbərlərin arasında bir məktub diqqətimi cəlb etdi. Məktubun məzmunundan bəlli olur ki, Rusiyadan İstanbula təhsil almağa gedən tələbələr Türk Sultanı II Əbdülhəmidin şənlik gününün keçirilməsi münasibətilə ona təbrik məktubu göndərmişlər. Məktubun sonunda "sənin qulun..." (7) sözlərindən sonra hər bir tələbənin ad və soyadı göstərilib, H.Cavidin isə adı və soyadı onların arasında yoxdur.

Tədqiqatçı alim Qulam Məmmədli bu haqda fikrini belə bəyan edirdi: "O, sultana yaltaqlanmaq istəməmiş, öz heysiyyətini, öz varlığını ondan çox yüksək tutmuşdur" (3, 18-19).

Öz qürurunu kimsəyə alçaltmayan Cavid ömrü boyu belə yaşamış, nə qədər maddi və mənəvi çətinlikləri olsa belə, kimsəyə xoş gəlmək üçün "mədhiyyə" yazmamış, yalnız xalqının azadlığı, elmə-təhsilə sahib olması uğrunda qələmi və sözü ilə mübarizə aparmışdır. Hələ yaradıcılıq aləminə yenicə qədəm qoyan şair bu məsələlər haqqında dövrü mətbuatda publisistik yazılarla müntəzəm olaraq çıxışlar etmişdir.

1904-cü ildə "Şərqi-Rus"un 21 may tarixli sayında "O kəs ki, elmdən məhrum cahilliyə "fanatikdir" söyləyən müəllif sonralar bu fikirlərini "Həyat", "İrşad", "İqbal", "Yeni İqbal", "Həqiqət", "Yeni irşad", "Açıq söz", "Füyuzat", "Məktəb", "Şəlalə" və s. mətbu orqanlarında davam etdirmişdi. Xalqın inkişafı, adamların savad, elm qazanması H.Cavidi düşündürən ən ciddi məsələlərdən olmuşdur. Cavid millətin başına gələn fəlakətləri cahillikdə, elmsizlikdə görür-

dü. Publisistik məqalələrində də daha çox məktəbin təbliğinə yer verirdi. Sənətkar Üzeyir bəyin redaktoru olduğu "Həqiqət" qəzetində bu mövzuda çox yazılar çap etdirmişdir.

"Həqiqət"in 1910-cu il 14 may tarixli sayında H.Cavid yazırdı: "Bir millətin tərəqqi etməsini bilmək üçün millətin məktəblərini, daha doğrusu, ibtidai məktəblərini görmək kifayət edər. Avropaya meydan oxuyan Almaniyanın, qoca Rusiyanı həyəcana düşürən Yaponiyanın bütün bu tərəqqiyyatı-cilddiyyələri hər ibtidai məktəblər sayəsindədir". Məqaləsinin sonunda müəlif bildirirdi ki, məktəblər millətin hər halını əks etdirir. Məktəblərin azlığı, yarıtmazlığı, qızların məktəbə cəlb edilməməsi, müəllim problemi bu gün bizim məktəblərin ən vacib problemlərindəndir.

Belə mətbu orqanlarından biri də istiqlal lideri M.Ə.Rəsulzadənin rəhbərliyi ilə fəaliyyətə başlayan "Açıq söz" qəzeti idi. H.Cavid yaradıcılığına və şəxsiyyətinə böyük hörmət və ehtiramla yanaşan M.Ə.Rəsulzadə qəzeti ilə ədibin əməkdaşlığından qürur duymuş, hələ qəzet nəşrə başlamazdan əvvəl dövrü mətbuat Cavid Əfəndinin qəzetlə əməkdaşlığı haqqında mütəmadi məlumatlar vermişdir.

Məsələn, Haşım bəy Vəzirovun "Sədayi-Qafqaz" qəzetinin 30 avqust 1915-ci il tarixli sayında belə bir elan çap edilib: "Yaxın günlərdə "Açıq söz" adında gündəlik bir qəzetə nəşr ediləcək. Qəzetədə Ömər Faiq, Hüseyn Cavid əfəndi kimi müqtədir mühərrirlər və ədiblər dəxi iştirak edəcəklər" (8). Eyni ilə belə bir məzmunlu elanla "Bəsirət" qəzetinin 12 sentyabr 1915-ci il (6) tarixli sayında rastlaşdıq. H.Cavidin "Açıq söz"lə ilk əməkdaşlığı 16 oktyabr 1915-ci il tarixli sayında çap olunan "Ey ruhi-pürsükun" adlı şeiri ilə başlayır (5). Doqquz gün (25-26 oktyabr) sonra isə ədibin "Müharibə və ədəbiyyat" (5) sərlövhəli publisistik məqaləsi çap edilir. Müharibənin insanların həyatına gətirdiyi dəhşətlərin ədəbiyyata, onun inkişafına da zərbə vurmağından təssüflənən müəllif yazırdı: "ədəbiyyatımız da büsbütün alt-üst olacaq. Həm də insafsız, mərhəmətsiz; etinasız bir surətdə yırtılıb, atılacaq, heyhat!" (5). Bu mövzuda müəllif "Bəsirət", "Qardaş köməyi" mətbu orqanlarında da "Hərb və fəlakət" sərlövhəli məqalələr dərc etdirərək Birinci dünya müharibəsinin törətdiyi dəhşətlərdən oxucusunu hali edirdi.

Qəzetin 28 dekabr 1915-ci il tarixli sayında elan verilir ki, yaxın günlərdə H.Cavidin "Şeyx Sənan"(5) pyesi qəzetimizdə çap ediləcək. Həqiqətən də 1916-cı ilin yanvarın 1-dən fevralın 2-nə kimi qəzetin 25 sayında pyes hissə-hissə çap olunub. Bu haqda H.Cavid Əziz Şərifə 30 may 1916-cı il tarixli məktubunda yazırdı: "Şeyx Sənan"ı vaxtsız nəşr etdim. Daha münasib vaxta buraxmalıydım. Lakin əgərçi məşhur ədiblər və tənqidçilərimiz tərəfindən bir çox təqdirlər eşidildi, sükut ilə keçmədi. Fəqət bən çox arzu edərdim ki, yalnız təqdir ilə qalmasın, qüsurları da göstərilsin" (2, 114).

Deməli, ədib sağlam tənqidə qarşı yaxşı münasibət bəsləyib. Bu haqda tədqiqatçı alim, H.Cavidin yaxın dostu Əziz Şərif xatirələrində yazırdı: "Hüseyn Cavid tənqiddən qaçan, qorxan, inciyən şair deyildi. Mən hələ məktəbli

olduğum zaman onun əsərləri haqqında çəkinmədən öz rəyimi deyərdim, o da mənimlə hesablaşardı və əsərlərinin bəzilərini mənim məsləhətlərimə görə təzədən işlərdi. Çünki o zaman mənim tənqidim səmimi, xeyirxah tənqid idi. Mən onu bir dost kimi tənqid edirdim, o da bir dost kimi mənim tənqidimi dinləyir, ağlına batanı qəbul, ağlına batmayanları isə rədd edirdi" (2, 143).

İllər sonra dövrün tanınmış publisisti Hacı İbrahim Qasımov yazırdı: "Hüseyn Cavidin pyesini tənqidə cəsarət edəməyiz. Çünki Cavidi tənqid üçün ikinci bir Cavid lazım gərək ki, o da zənnimizcə bizdə yox kimidir" (4). H.Cavidin tənqidə münasibəti haqqında onun yaxın dostu Abdulla Şaiq də "Xatirələrim"də geniş və ətraflı məlumat verir. H.Cavid özü də dövrün bir çox ədiblərinin yaradıcılığı haqqında maraqlı ədəbi-tənqidi məqalələr yazmış, fikirlər söyləmiş. 1916-cı ildə Bakıda görkəmli ədib C.Məmmədquluzadənin "Ölülər" pyesi tamaşaya qoyularkən dövrün yazarları mətbuatda öz fikrini bildirdilər. Onların arasında H.Cavid də var idi. "Açıq söz"ün 1 may 1916-cı il tarixli sayında "Ölülər"ində sənətkaranə bir dirilik, mahiranə bir incəlik var" söyləyən müəllif məqaləsində C.Məmmədquluzadə yaradıcılığına yüksək qiymət verməklə yanaşı onu alqışlayır. Onu da qeyd edək ki, H.Cavid "Ölülər" haqqında o zaman bir neçə mətbuat orqanında "Tuti" (7 may 1916), "Yeni iqbal" (29 sentyabr 1916) və s. mətbuat orqanlarında da məqalələr çap etdirərək "Ölülər"i son komediyalar arasında parlaq ulduza bənzədirdi" (3, 87).

Amma təəssüflər ki, 30-40-cı illərdə Azərbaycanın H.Cavid kimi böyük şair və mütəfəkkirinin yaradıcılığı sosialist realizminin ideoloji, metodoloji əyintilərinin qurbanı olaraq səhv təbliğ edildi. Dövrün tanınmış ədəbi tənqidçiləri, yazarları H.Zeynallı, M.Cəfər, M.K.Ələkbərli, Ə.Nazim, M.Quliyev, M.Arif, M.Hüseyn, S.Rüstəm və başqaları yerli-yersiz H.Cavidi nəinki tənqid, hətta təhqir etməkdən belə çəkinməmişlər. Nə yaxşı zaman, tarix həqiqətləri faş etdi. Ədəbiyyatşünas alim Y.Qarayev yazırdı ki: "Cavid zaman münasibətlərinin bəlkə də ən mürəkkəbi, təzadlısı və ibrətlisidir. Bu gün tarix, elm həqiqət güzgüsündə yenidən görünməyə Cavid qədər ehtiyacı olan ikinci böyük ədəbi simamız bəlkə də yoxdur" (3, 6) söyləyən alim nə qədər haqlıdır. Bu haqlılıq illər sonra həqiqətləri üzə çıxardı. Növbəti məqalələrimizdə bu haqda geniş söhbət açacağıq.

Xalq arasında yeniliyi, maarifi təbliğ edən insanlara xüsusi rəğbət bəsləyən H.Cavid yaradıcılığında da onlara yüksək qiymət verirdi. "Açıq söz"ün 9 iyun 1917-ci il tarixli sayında "M.Qurbanəli Şərifzadə" başlıqlı iri həcmli nekroloqda sevimli müəllimi maarifpərvər insan Məşədi Qurbanəli Şərifzadənin elm, maarif yolunda etdiyi xeyirxah əməllərini yada salaraq yazırdı: "Sağ əlinlə verdiyini sol əlin duymasın!.." üsuluna ən çox riayət edən, sadiq, fədakar, həmiyyətli bir sima idi. O, böyük bir müəllim idi, camaət müəllimi idi, həm də müəllimlərdən fəzlə məlumata malik idi. Bir an əvət, bir an belə elm və maarif günəşinə pərəstiş etməkdən geri durmazdı" (5).

H.Cavidin "Türk əsirləri" adlı şeiri qəzetin 12 dekabr 1917-ci il tarixli sayında çap olunub. Nargin adasında saxlanılan əsrlərə həsr etdiyi bu şeir o

zaman ədəbi mühitdə çox maraqla qarşılanmış, dövrü mətbuatda bu haqda məqalələr yazılmışdır. Qəzetin 9 və 31 oktyabr saylarında H.Cavidin "Bahar şəbnəmləri", "Maral", "Şeyx Sənan" əsərlərinin satışı haqqında elanlar var. Ümumiyyətlə, H.Cavidin "Açıq söz"lə əməkdaşlığı, kollektivinin ona isti münasibəti bir daha sübut edir ki, qəzetin yaradıcılarından biri olan Məhəmməd Əmin Rəsulzadənin H.Cavid yaradıclığına və şəxsiyyətinə böyük hörməti olub.

H.Cavid XIX əsrin sonunda, XX əsrin əvvəllərində yaşayıb-yaratmışdır. Bir çox tarixi hadisənin canlı şahidi olmuşdur. Sultan Əbdülhəmid zamanında Türkiyədəki siyasi durumu, çar Rusiyasının və Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsini, bolşeviklərin silah gücünə hakimiyyətə gəlməsi və amansız rejimin idarə üsullarını öz gözləri ilə görmüşdür. Bütün bu siyasi, tarixi hadisələr Cavidin həyatına, yaradıclığına, dünyagörüşünə təsirsiz ötüşməmişdir. Lakin bunlara baxmayaraq Cavid üçün "sosialist mədəniyyəti", "proletar mədəniyyəti", "proletar ədəbiyyatı" yox idi. Onun üçün bir milli mədəniyyət, bir milli ədəbiyyat var idi ki, o da böyük türk xalqlarının mədəniyyəti və ədəbiyyatı idi. O, "sosialist ədəbiyyatı" əvəzinə "Cavid ədəbiyyatı", "sovet teatrı" əvəzinə "Cavid teatrı" yaradırdı.

Ədəbiyyatşünas alim M.Cəfər demişdir: "Hüseyn Cavid göz açıb Azərbaycanda Cəlil Məmmədquluzadələrin, Sabirlərin, Nərimanovların yaratdığı çox qüdrətli, təsirli inqilabi məzmunlu bir ədəbiyyat görmüşdü. Bu da diqqətəlayiqdir ki, Cavid əsərlərinin böyük əksəriyyətində müstəmləkə boyunduruğu altında inləyən Şərq xalqlarını Qərb imperalizminə qarşı mübarizəyə çağırmış və belə bir mübarizəni məhkum xalqların azadlığı, qurtuluşu üçün labüd hesab etmişdir". Bax, bu idi Hüseyn Cavid publisistikasının, dramaturgiyasının, bir sözlə, sənətinin böyüklüyü və dahiliyi.

## ƏDƏBİYYAT

1. Abdulla M.Ş. "Xatirələrim". Bakı: Uşaqgəncnəşr, 1961, 223 s.
2. Şərifzadə.Ə.Q. "Geçmiş günlərdən". Xatirələr. Bakı: Azərnəşr, 1977, 301s.
3. Məmmədli Q. "Cavid ömrü boyu". Bakı: Yazıçı, 1982, 296 s.
4. "Azərbaycan füqərasi", 1921, 20 noyabr
5. "Açıq söz" qəz., 1915, 16, 25, 26 oktyabr; 1915, 28 dekabr; 1916, 1 may; 1917, 9 iyun.
6. "Bəsirət" qəz., 1915, 12 sentyabr.
7. "İrşad" qəz., 1906, 4 sentyabr.
8. "Sədayi-Qafqaz" qəz., 1915, 30 avqust

## ГАЗЕТА "AÇIQ SÖZ" И Г.ДЖАВИД

С.Г.ГАСАНОВА

## РЕЗЮМЕ

Одним из сотрудников газеты «Açıq söz» был Г.Джавид. Здесь он публиковал статьи, посвященные публицистике, критике литературы. Об этом говориться в произведениях ученого исследователя Г.Мамедли. Произведение поэта «Шейх Санан» было впервые опубликовано в газете «Açıq söz».

**Ключевые слова**: критика литературы, сотрудники, печать, статья, автор

## “**OPEN WORD**” **AND** H. **JAVID**

S.G.**HASANOVA**

**SUMMARY**

H.Javid was one of the collaborators of the newspaper “Open Word”. It published literary and critical articles by H.Javid. The plays by the investigator and scientist G. Mammadli include some information about it. The play “Sheykh Sanan” by the poet was firstly published in this newspaper.

**Key words:** “Open Word”, publish, information, newspaper, collaborate